

**Rayonumuzda onu tanımayan, hörmət və izzətlə qarşılamayan yoxdur. İstəyirəm sizinlə də tanış edəm. Elə bu məqsədlə də Sevil xanımın ömür kitabından bəzi məqamları diqqətinizə çatdırıram...**

# Bir ana tanıyıram...

1958-ci ildə Şəmkirdə Məhərrəm kişinin ailəsində bir qız uşağı dünyaya gəldi. Gələcəyin qayğılı-qayğısız günlərindən, ağrı-acısından, nəşəli anlarından xəbərsiz olaraq adını Sevil qoydular. Kim bilir, bəlkə də hamı tərəfindən sevilsin deyə. Bəlkə də davranışı, rəftarı, xasiyyəti ürəyəyatan olsun, işi-gücü, qoçaqlığı, mübarizliyi, halallığı, təmiz adı ilə hamıdan seçilsin deyə.

Sözsüz ki, bu sadaladıqlarım hər bir valideynin arzusudur. Nə isə, illər ötdü. Sevil məktəb yaşına çatdı. Şəmkir şəhər Ə.Cavad adına məktəbdə oxudu. 1975-ci ildə həmin məktəbi bitirib müstəqil həyata atıldı.1971-ci ildən tarix-diyarşünaslıq muzeyində abidə mühafizəçisi kimi işə başladı.

İlk gündən həm rayon mədəniyyət şöbəsi, həm də muzey kollektivinin dərin rəğbətini qazandı. İşgüzarlığı, əməksevərliyi ilə çoxlarına nümunə oldu. Muzey işinin dərinliyinə varıb, hər bir eksponat haqqında ətraflı məlumat topladı. Hər birini qorudu, nazını çəkdi. İllər bir-birini əvəz etdi. Sevil 1978-ci ildə ailə qurdu. Tanrı ona üç övlad bəxş etdi. İki oğul və bir qız. Övladları onun həyatında bir dönüş yaratdı.

Yaşamaq, qurub-yaratmaq həvəsi daha da artdı. Həm ailənin, həm də muzeyin qayğısı onu sahib olduğu işindən usandırmadı, yormadı. 1980-ci ildə muzeydə bələdçi vəzifəsinə təyin olunan Sevil xanım vəzifəsinin məsuliyyətini nəzərə alaraq, günü-gündən işinə daha ciddi, daha dəqiqliklə yanaşdı. Muzey fondunun zənginləşməsinə səy göstərdi. Yeni eksponatların, nadir əşyaların toplanmasında fəal iştirak etdi. Muzeyə kollektiv və fərdi şəkildə gələn tamaşaçılara hər bir eksponat haqqında ətraflı və maraqlı məlumat verdi.

Onları gülərüzlə qarşıladı, razılıqla yola saldı. 1996-cı ildən muzeydə fond mühafizəçisi kimi işini davam etdirdi. Çoxlarına, kənardan baxana muzey işi asan görünsə də bu belə deyil. Burada toplanan əşyalar ciddi surətdə qorunmalı, hər birinə xüsusi qayğı göstərilməlidir. Bunun öhdəsindən isə illərini bu işə həsr edən kəs gələ bilər.

Ömrünün 35 ilini şərəfli bir işə həsr etmiş el anası bu gün də muzeydə çalışır. Rayonumuzun tarixini özündə əks etdirən bu məkanda beş şöbə fəaliyyət göstərir. Etnoqrafiya, arxeologiya, numizimatika, sənəd və foto-şəkil bölmələrində 5717 ədəd eksponat nümayiş etdirilir. Bu eksponatlar bizə rayonumuzun tarixindən, zəngin mədəniyyətindən, ən qədim yaşayış məskəni olmasından soraq verir.

**Sevil Aslanova öz işinin ustasıdır. Bu gün muzey əməkdaşlarının hərtərəfli biliklə təmin olunmasında, eləcə də eksponatlar haqqında ümumi məlumatlandırılmasında onun böyük rolu vardır...**

**● Aləmzər HÜSEYNOVA,**
***rayon tarix-diyarşünaslıq muzeyinin fond müdiri***